## İslam Tolerantlığı təbliğ edir

Allah tərəfindən göndərilmiş səmavi dinlərlərin ruhunda məcburiyyət yoxdur. Çünki məcburiyyət, başqasına zorla hansısa dini əqidəni qəbul etdirmək səmavi dinlərin əsas prinsiplərinə ziddir. Bunu biz "Tövrat", "İncil" və "Qurani-kərim"in ayələrində də görməkdəyik. Bəlkə də İslam dini digər dinlərə nisbətən bu məsələni daha da qabarıq şəkildə ifadə etməkdədir. Uca Rəbbimiz belə bəyan etməkdədir: "Dində məcburiyyət yoxdur" (Bəqərə, 256). Bu ayəyə əsasən deyə bilərik ki, dinimiz öz ayinlərini başqalarına məcburi şəkildə qəbul etdirməyə qətiyyən yox deyir. Dinimiz qarşısındakını əqidə baxımından tamamilə sərbəst buraxır. Qurani-kərimin ayəsi ilə sübut olunmuşdur ki, İslam dini bu iki din mənsublarının ibadət mərkəzləri olan sineqoq və kilsələrə tolerantlıq nümayiş elətdirib. "Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan sinaqoqlar (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi (darmadağın edilərdi)" (Həcc, 40). Gördüyünüz kimi, İslam dinində tolerantlıq dinin əsas ünsürü kimi qəbul edilir. Qurani-kərimin müxtəlif ayələrində Uca Rəbbimiz belə buyurur: "Sizin dininiz sizə, mənim dinim mənə aiddir" (Kafirun, 6). Bu ayədən də insanların müxtəlif inamda və fikirdə ola biləcəyi və həmin insanlara qarşı münasibətin necə formalaşacağı aydın görünür. Tarixə nəzər yetirsək aydın şəkildə görərik ki, bizim ölkəmizdə daima xristian və yəhudilər olmuşdur. Qərblilərin bu mövzudakı etiraflarına görə, xristian və yəhudilər öz dövlətlərində belə,

bizim içimizdə yaşadıqları qədər firavan yaşamamışlar. Müsəlmanlar onları təminat altına alıb qorumuşlar. Fəqət heç bir zaman onları İslam dinini qəbul etməyə məcbur etməmişlər. Onların xüsusi məktəbləri olmuş və özlərinə aid xüsusiyyətlərinin hamısını, dini ayin və bayramlarını mühafizə edirdilər. Xalqımız Qurani-kərimdən gələn bu inanca son dərəcə diqqət göstərmiş və bütün səmavi dinlərin ardıcıllarına xoş münasibət göstərmişdir. Son dövrlərdə Qafqaz Müsəlmanları İdarəsi, xüsusilə də onun rəhbəri Şeyxülislam həzrətlərinin bu sahədə atdığı addımları qiymətləndirmək hər birimizin mənəvi borcudur. Onun bu sahədə gördüyü işlər təkcə ölkəmizdə deyil, eyni zamanda dünyanın müxtəlif ölkələrində də təqdir edilməkdədir. Yeri gəlmişkən vurğulamaq istəyirəm ki, bu yaxınlarda Şeyxülislam həzrətlərinin Gürcüsan prezidenti tərəfindən təltif edilməsi Şeyximiz bu sahədəki fəaliyyətinə bariz şəkildə verilən qiymətdir.

**Hacı Fuad Nurulla QMİ-in sədr müavini**